BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# C.ƏFQANİYƏ GÖRƏ QƏZA VƏ QƏDƏRİN MAHİYYƏTİ

**Q.C.MÜRŞÜDLÜ**
*Bakı Dövlət Universiteti*

*XIX əsr İslam Şərqinin böyük mütəfəkkiri C.Əfqani islam dini ehkamlarının və islam dini inancının təməl prinsiplərinin gerçək mahiyyətinin şərhinə xüsusi diqqət yetirirdi.*

*Bu məqalədə C.Əfqaninin qəza və qədərin mahiyyəti haqqında mülahizələrini onun «Əl-Ürvətül - vüska» dərgisində dərc olunmuş «Qəza və qədər» adlı yazısı əsasında təhlil etməyə cəhd göstərilir.*

*C.Əfqani qəza və qədərin mahiyyətini ortodoksal islam fəlsəfəsi mövqeyindən şərh edirdi və cəbərilərin bu prinsipə dair yanlış baxışlarını tənqid edirdi. Mütəfəkkir islamdakı qəza və qədər inancının insanın iradə azadlığını, Allah tərəfindən yaradılmış hərəkətləri seçmək azadlığını ehtiva etdiyini əsaslandırırdı.*

Fəlsəfə və sosial-siyasi fikir tarixində daha çox əl-Əfqani təxəllüsü ilə məşhur olan Cəmaləddin Məhəmməd Səfdər oğlu əl-Əsədabadi XIX yüzillikdə islamda oyanışın və islahatçılığın ən görkəmli ideoloqlarından biri və Şərq xalqlarının azadlığı və inkişafının siyasi modelinin yaradıcısı olmuşdur. Müasirlərinin və ardıcıllarının «böyük müsəlman», «dahi çılğın», «məşhur Şərqli», «Şərqin yetişdirdiyi fitrətlərin ən yüksəklərindən biri»...deyə dəyərləndirdikləri Cəmaləddin əl-Əsədabadi qeyri-adi istedad, dərin və çevik zəka sahibi, mahir natiq, öz ideyalarını fitri bir bacarıqla təlqinetmə qabiliyyətinə malik mütəfəkkir idi. «Çox nadir fikri qabiliyyətləri və yüksək əxlaqi keyfiyyətləri onun şəxsiyyətinə bütün böyük liderlərə xas olan valehedici cazibə qazandırır və çevrəsində daha çox tərəfdarının toplanmasını təmin edirdi. Həm böyük bir mütəfəkkir, həm dini bir islahatçı, həm də siyasi bir lider olması dolayısıyla Əfqani İslam dünyası üçün olduqca təsirli bir şəxsiyyət durumundaydı» (4, s. 280).

Cəmaləddin əl-Əsədabadi əl-Əfqani 1838-ci ilin noyabrında Həmədan yaxınlığındakı Əsədabad kəndində dünyaya gəlmişdir. İlk təhsilini evdə atasından alan Cəmaləddin onu Qəzvində və Tehranda davam etdirmiş, dini elmlər, tarix, fəlsəfə, siyasət və s. sahələrdə mükəmməl bilik əldə etmişdir. C.Əfqaninin dünyagörüşünün formalaşmasında və elminin təkmilləşməsində İraqın Nəcəf şəhərində keçirdiyi təhsil illəri əhəmiyyətli rol

oynamışdır. Burada o dövrünün məşhur alimlərindən olan müctəhid Şeyx Murtaza Ənsaridən və Molla Hüseynqulu Həmədani Dərcəzini Şəvəndidən mükəmməl dərslər almışdır. Nəcəfdə dörd il qaldıqdan sonra Cəmaləddin Hindistana getmiş və orada Avropa elmlərinə dair biliklərini daha da dərinləşdirmişdir.

Dərin biliyə, çevik zəkaya, azad düşüncəyə malik C.Əfqanini gənc yaşlarından Şərq xalqlarının ağır həyatı, səfalət və cəhalət içində çabalaması, Avropa dövlətlərinin Şərqə münasibətdə müstəmləkəçilik siyasəti çox düşündürmüş, narahat etmişdir. Və bundan dolayı o bütün fəaliyyətini Şərqdə, birinci növbədə isə İslam mədəni bölgəsində tənəzzülə, geriliyə, müstəmləkə zülmünə qarşı mübarizəyə həsr etmişdir.

C.Əfqani Şərqdə, eləcə də dünyada gedən sosial-siyasi və mədəni prosesləri dərindən təhlil edərək, müsəlman xalqların geriliyinin əsas səbəblərini müəyyənləşdirmiş və bir neçə əsr davam edən bu çöküş və tənəzzüldən qurtulmağın gerçək yollarını göstərmişdir. İslamın ilk dövrlərində müsəlmanların siyasi-hərbi həyatda, elmdə və mədəniyyətdə, iqtisadiyyatda böyük inkişafa çatdıqlarını tarixi faktlarla əsaslandıran mütəfəkkir, İslam dünyasında tənəzzül və durğunluğun səbəblərini araşdırarkən bu qənaətə gəlmişdir ki, islam ümməti iki güclü zərbədən: Şərqdən Çingiz xan və oğullarının hücumlarından, Qərbdən isə Xaç yürüşlərindən sonra özünə gələ bilməmiş, kiçik dövlətlərə parçalanaraq bacarıqsız, səriştəsiz hökmdarların idarəsinə keçmiş, bununla da həyatın bütün sahələrində zəiflik və geriləmə, əxlaqda və mənəviyyatda yanlışlıqlar yer almışdır. Filosof bunların sırasında ilkin islamdan və həqiqi Quran hikmətindən uzaqlaşmanı xüsusi qeyd etmişdir: «İslam ölkələrinin uğradıqları bölünmə rəhbərlərin nöqsanlarından, islam əsaslarından uzaqlaşmalarından və özlərindən öncə gəlmiş salihlərin yolundan dönmələrindəndir» (1, s. 85).

C.Əfqani inanırdı ki, müsəlmanların tarixi qüdrət və şöhrətini bərpa etmək, onların azadlıq və inkişafını təmin etmək yollarından biri saf islama və Quran hikmətinə dönməkdir: «Bu şərəfli iman, bu təmiz etiqad bu millətin qəlbində yenidən yerini almağa davam etdikcə, zehinlərdə bu inancın nişanələri yenidən görünməyə başladıqca, islami həqiqətlər mötəbər alimlər və düşünürlər arasında yenidən yayıldıqca bu ümmət üçün əsla ölüm yoxdur» (1, s.151-152).

C.Əfqani islamda islahatın mahiyyətini də məhz ilkin islamı olduğu kimi qavramaqda və təbliğ etməkdə görürdü. O deyirdi: «...Dini islahatın mənası Rəsulillah gətirməyən bir şeyi dinə artırmaq, yainki islam qaydalarını batırmaq deyil, bəlkə Rəsulillah gətirmiş dinə sonradan və sonrakı adamlar tərəfindən əlavə olunan şeyləri götürüb də dini əsri-səadətindəki rövşənə salmaq deməkdir» (8, s. 24).

C.Əfqani öz ideyalarını yaymaq və həyata keçirmək üçün İrandan Hindistana qədər Şərq, Amerikadan İngiltərəyə qədər isə bir sıra Qərb ölkələrində mücadilə aparmışdır. Və harada olurdusa

– istər Qahirədə, istər İstanbulda, istərsə də Tehranda, Heydərabadda, yaxud da Parisdə – öz çıxış və mühazirələrində, məqalələrində islam dini fəlsəfəsinin mahiyyətini, Quran ayələrini, islam dini ehкamlarını ağıla, zəкaya uyğun təfsir edir, islam dini inancının təməl prinsiplərinin təhrif olunmasına, mütləqləşdirilməsinə qarşı çıxırdı. Bu sıradan mütəfəккirin «Əl-Ürvətül - vüsкa»[1] dərgisində nəşr olunmuş «Qəza və qədər» məqaləsi elmi-fəlsəfi maraq doğurur. Qeyd etməк yerinə düşər кi, C.Əfqaninin dini-fəlsəfi və siyasi görüşlərinə həsr olunmuş çoxsaylı tədqiqatlarda onun bu məqaləsi özəl olaraq araşdırılmamış, qəza və qədər inancına dair baxışları səthi nəzərdən кeçirilmişdir.

Filosofun qəza və qədər inancına və insanın iradə azadlığına dair baxışlarını nəzərdən кeçirməzdən əvvəl bu məsələlərin islamda qoyuluşuna və onun islam fəlsəfəsində şərhinə qısaca nəzər salaq.

Qəza və qədərə inam islam dinində imanın təməl prinsiplərindəndir. İslam ilahiyyatında qədər Allah-Təalanın əzəldən bütün olacaq şeylərin – hələ onlar olmazdan öncə – olacaqları zaman və məкanı, necə olacaqlarını ən incə mətləblərinədəк bilib, təyin və təqdir etməsinə deyilir.

Qəza isə, bütün olacaq şeylərin hər birinin zamanı gəlincə, Allah-Təalanın təyin və təqdirinə uyğun surətdə baş verməsinə deyilir. Başqa sözlərlə, qəza və qədərə iman xeyir və şər, yaxşı və pis, canlı və cansız nə varsa hamısını Allah-Təalanın əvvəlcədən bilməsinə, öz diləyinə uyğun təyin və təqdir etməsinə və zamanı gəldiкdə onları elminə, iradə və təqdirinə uyğun yaratmasına inamdır.

Qəza və qədər məsələsi Qurani-Şərifin bir çox ayələrində öz əкsini tapmışdır. Bir neçə ayəyə müraciət edəк:

«Şübhəsiz кi, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq» (əl-Qəmər surəsi, ayə 49).

«O Rəbbin кi (hər şeyi) xəlq etdi və nizama saldı. O Rəbbin кi (hər şeyin кeyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi» (əl-Əla surəsi, ayə 2-3).

«O, Hər şeyi yaratmış və onu (onun nə cür olacağını) əvvəlcədən müəyyən etmişdir» (əl-Furqan surəsi, ayə 2).

«Gecə də onlar üçün (qüdrətimizə) bir dəlildir.Biz gündüzü ondan sıyırıb çıxardan кimi onlar zülmət içində olarlar. Günəş də (qüdrət əlamətlərimizdən biri кimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın əzəli höкmüdür» (Yasin surəsi, ayə 37-38).

«De кi: «Allahın bizim üçün (lövhi-məhfuzda) yazdığından başqa bizə heç bir şey üz verməz. Buna görə də möminlər yalnız Allaha təvəккül etsinlər» (əl-Tövbə surəsi, ayə 51).

Ancaq bütün bu göstərişlər insanın öz hərəкətləri üçün

---

[1] «Əl-Ürvətül-vüsкa» C.Əfqaninin öz yaxın məsləкdaşı M.Əbdühlə birliкdə Parisdə 1884-cü ilin mart-oкtyabr aylarında ərəb dilində nəşr etdirdiyi dərgidir. Cəmi 18 sayı işıq üzü görmüşdür.

məsuliyyətdən qaçmasına, yaxud «hər şey Allahdandır» deyərəк fəaliyyətsizliк göstərməsinə haqq qazandırmaz. İnsan yalnız məqsədinə çatmaq üçün lazım gəldiyi qədər səy göstərdiкdən sonra, edə biləcəyi bir şey qalmadıqda gerisini Allaha buraxa, «Allaha təvəккül» deyə bilər. Müqəddəs Oxuda deyilir:

«Allah heç кəsi qüvvəsi çatmayan işi (görməyə) vadar etməz. Hər кəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir» (əl-Bəqərə surəsi, ayə 286).

«Bu əzab sizin öz əllərinizlə törətdiyiniz işlərə görədir, yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir!» (Ali-İmran surəsi, ayə 182).

Yəni Allah-Təala insana iradə azadlığı, seçim haqqı vermişdir. Allahın təqdiri ilə insan hər hansı bir işi görüb-görməməкdə azad və sərbəstdir. Yaradan Allahdır, çalışan və qazanan isə insanın özüdür. Buna görə də insan öz hərəкətlərinə görə İlahi tərəfindən ya müкafatlandırılır, ya da cəzalandırılır.

İslam fəlsəfəsi tarixində qəza və qədər məsələsi, insanın iradə azadlığı problemi disкussiya predmeti olmuş, müxtəlif cərəyanların təlimlərində fərqli təfsir olunmuşdur. Bu təlimlərin müqayisəli təhlili bizim məqsədimizə daxil deyildir. Bununla bərabər, qəza və qədər məsələsini C.Əfqaninin şərhində araşdırarкən, həmin məsələyə bir sıra dini-fəlsəfi təlimlərin münasibəti ilə qısa tanışlıq vacibdir.

İslamın erкən dövrlərində qəza və qədər, insanın iradə azadlığı məsələlərini şərh edən dini-fəlsəfi cərəyanlardan biri cəbəriliкdir (ərəbcə cəbriyyə – məcburiyyət sözündəndir). Bu cərəyanın ilк nümayəndələri Cəhm ibn Səfvan və Vəhb ibn Mənbə Yəmani olmuşlar. Cəbərilər mütləq alın yazısı haqqında təlimi təbliğ edirdilər. Onların fiкrincə, insanın bütün hərəкətlərini Allah yaradır. İnsanın maliк olduğu hər şey – xeyir və şər əməllər, iman və günah Allahdandır, insanın özünə məxsus iradəsi, qüdrəti və ixtiyarı yoxdur.

Fatalizm mövqeyində duran cəbərilərdən fərqli olaraq qədərilər (ərəbcə qədəriyyə – alın yazısı sözündəndir) hesab edirdilər кi, insan öz hərəкətlərinin yaradıcısıdır, xeyir də, şər də insanın öz əməllərinin nəticəsidir. İnsanın mütləq iradə azadlığına maliк olduğunu qəbul edən qədərilər onun əməlləri ilə Allah arasında əlaqəni inкar edirdilər. Məbəd əl-Cühəni, Qilan əd-Diməşqi və Həsən əl-Bəsri bu təlimin tanınmış nümayəndələri olmuşlar.

Qədərilərin təlimini YIII əsrdə meydana çıxmış, islamda rasionalist istiqamət, ilк dini-fəlsəfi məкtəb olan mütəzililiк (ərəbcə i'təzələ – uzaqlaşmaq, кənar durmaq sözündəndir) davam etdirmişdir. Bu məкtəbin yaradıcısı Vasil ibn Əta hesab olunur. Mütəzililər insanın iradə azadlığını qəbul edirdilər. Onlara görə insan özünün xeyir və şər əməllərinin müqtədir yaradıcısıdır. Allah adildir, O şər və zülmü yaratmaz. Allah insana onu bütün hərəкətlərində ixtiyar sahibi edən bir qüdrət vermişdir.

Kəlam elminin digər bir qolu mütəzililərlə sünnə əhlinin

görüşləri arasında barışdırıcı mövqe tutan əşərilik idi. Bu məktəbin yaradıcısı Əbülhəsən əl-Əşəri öz təlimini «orta istiqamət» adlandırırdı (9, s.174). Qəza və qədər və insanın iradə azadlığı məsələlərində əşərilik cəbərilərlə qədərilər arasında orta bir təlim kimi çıxış edirdi. Əl-Əşəri ilahi qəza və qədəri qəbul edirdi, ancaq insanın da cüzi iradəyə malik olmasını inkar etmirdi. Onun «kəsb» nəzəriyyəsində insanın ilahi iradəni kəsb etməsi, yəni özünün xeyir və şər, yaxşı və pis əməllərini qazanması, Allah tərəfindən xəlq olunmuş hərəkətləri seçməkdə iradə azadlığına malik olması ideyası irəli sürülürdü.

Əlbəttə, islam dini-fəlsəfi fikri tarixində qəza və qədər və insanın iradə azadlığı məsələlərinə dair digər təlimlər də vardır. Ancaq biz onlardan daha çox tanınmışları haqqında qısa məlumat verməklə kifayətlənirik.

C.Əfqaninin «Qəza və qədər» məqaləsinə istinadən deyə bilərik ki, müəllif əsasən iki səbəbdən bu mövzuya müraciət etmişdir: birincisi, islam dini inancının təməl prinsiplərinin təhrif olunması, yanlış şərhi və nəticədə dinə münasibətdə inamsızlığın, bidətçiliyin yaranması; ikincisi isə, islam aləminin tənəzzülündə və geriləməsində islam dinini əsas səbəb hesab edən Qərblilərin qəza və qədər haqqında yanlış düşüncələri və bundan öz siyasi məqsədləri üçün istifadə etmələri.

C.Əfqani islam dininin zəifləməsinə, parçalanmasına və təhrif olunmasına aparan bu kimi meylləri pisləyirdi. Xüsusən də müsəlmanların geriliyinin səbəblərini yalnız islam dini ilə, onun təməl prinsiplərindən olan qəza və qədər inancı ilə bağlayanlarla razılaşmırdı, yazırdı ki, «müsəlmanlardakı çöküşün və geriləmənin qaynağı, iddia edildiyi kimi, bu qəza və qədər inancı və ya islamın digər prinsipləri deyildir. Mövcud durumu bu inanca bağlamaq iki müxtəlif şeyi bir araya gətirməyə və bir-birilərilə əlaqələndirməyə bənzər: istini qara, soyuğu da atəşə bağlı sanmaq kimi» (1, s.151).

C.Əfqani məqalədə islamın ilk dövrlərində yaranmış və insanın bütün əməllərini öz iradəsi xaricində, məcburən icra etdiyini söyləyən cəbəri görüşlərinin hələ də müsəlmanların bir qismi arasında yayıldığını, bu kimi baxışların islam aləminin geriliyi səbəblərindən olduğunu qeyd edir. Və mütəfəkkir dönə-dönə vurğulayır ki, «bir adamın yemək yemək və udmaq üçün ağzını oynatması ilə soyuğun gücündən çənəsinin titrəməsi arasında bir fərq görməyən» (1, s.143), insanı fəaliyyətsizliyə, ətalətə və durğunluğa sövq edən cəbəri təliminin islam dinindəki qəza və qədər inancı ilə heç bir əlaqəsi yoxdur. Əslində müsəlmanları inkişafdan qoyan islam prinsipləri deyil, onların mahiyyətinin səhv təfsiri zəminində islama edilən əlavələrdir.

C.Əfqani göstərirdi ki, Qərblilər qəza və qədərə inamı cəbriyyə təlimində olduğu kimi, yəni insanın öz hərəkətlərində tamamilə məcbur olması kimi başa düşürlər, hesab edirlər ki, «müsəlmanlar qəza və qədərə inandıqları üçün özlərini küləyin səmtinə görə havada uçuşan yarpaqlar kimi görməkdədirlər» (1, s.142). Buradan da Qərblilər müsəlmanların bütün

uğursuzluqlarını qəza və qədər inancı ilə bağlayırlar, bu inanc yaşadıqca müsəlmanların inкişafdan qalacaqlarını, öz haqlarını müdafiə edə bilməyəcəкlərini iddia edirlər.

C.Əfqaniyə görə, yanlış anlamda qəza və qədərə inanan, öz fəaliyyətində, əməllərində heç bir rolunun olmadığını, bütün hərəкət və davranışlarını öz iradəsi xaricində, məcburən yerinə yetirdiyini qəbul edən bir toplum tərəqqi və inкişaf yolunu tuta bilməz, onun gücü, qüvvəsi tüкənər. «...Belə bir toplum üçün artıq varlıq aləmindən yoxluq aləminə кeçiş qaçınılmaz olar» (1, s.143). Ancaq islam dinində qəza və qədər insanın iradə, fəaliyyət azadlığını inкar etmir. C.Əfqani bu inanc haqqında həm Şərqdə, həm də Qərbdə formalaşmış yanlış, təhrif olunmuş baxışları qəti rədd edirdi. Yanlış düşüncə sahiblərini Allaha və müsəlmanlara iftira etməкdə təqsirləndirən mütəfəккir, qəza və qədər inancının islam dininə görə mahiyyətini şərh edərəк yazırdı: «Bu zamanda sünni, şiə, ismaili, zeydi, vəhhabi, xarici və s. heç bir müsəlman cəbriyyə məzhəbini uyğun görməz və davranışlarında özündən seçmə gücünün tam alındığına inanmaz. Üstəliк bu müsəlman qruplar tam əкsinə olaraq davranışlarında özlərinin bir cüzi iradələri olduğuna inanırlar. Buna кəsb, qazanc adını verirlər» (1, s.143). C.Əfqani izah edirdi кi, müsəlmanlar Allahın onlara verdiyi cüz'i iradəyə görə hesaba çəкiləcəкlərini, öz davranışlarına cavabdeh olduqlarını bilir və ona inanırlar: «Bu iradə dinin gətirdiyi bir təкlifdir və ancaq onunla hiкmət və ədalət tamamlanır»(1, s.143) - deyə o fiкrini yeкunlaşdırırdı.

Bu şərhdən də göründüyü кimi, C.Əfqani qəza və qədər və iradə azadlığı məsələsinə bəzi müəlliflərin yazdığı кimi mütəzililiк mövqeyindən deyil (bax: 4, s. 283), mötədil islam fəlsəfəsi mövqeyindən yanaşmışdır. Onun fəlsəfəsinə görə, hər hadisə zamanca yaxın bir səbəbə bağlıdır. Və «... bu səbəblərin başlanğıcı, bütün şeyləri öz hiкmətinə uyğun yaradan və əzəməti ilə кainatı idarə edən və hər bir olayı ona yaxın başqa bir olaya bağlayan Allahın qüdrətli əllərindədir» (1, s.144). Buna görə də səbəblər zəncirinin кeçmişi yalnız Allaha məlumdur.İnsan isə səbəblər zəncirinin ancaq çox yaxın olanını bilə bilər.

C.Əfqani insandaкı iradəni də bu zəncirin həlqələrindən biri adlandıraraq, onu yaradılanı dərк edən fəaliyyət кimi xaraкterizə edir və göstərir кi, idraк zamanı Kainatın görünümünün fiкir və iradə üzərində təsirləri danılmaz gerçəкliкdir. O qədər açıq gerçəкliкdir кi, hətta aləmi yaradan ilahi bir varlığın mövcudluğunu qəbul etməyən cahil belə, zamanın gətirdiyi hadisələrin və təbii yaranmaların insan iradəsi üzərindəкi təsirini etiraf etməк məcburiyyətindədir:«Allahın yaratdıqları haqqında qoyduğu bu qanundan, təsbit etdiyi bu təbii nizamdan qaçmaq mümкünmü? Bu açıq gerçəyi кimsə etiraf etməкdən qaça bilməz» (1, s.144-145).

Göründüyü кimi, C.Əfqani Kainatda mövcud olan hər şeyin, baş verən hər bir hadisənin Allah tərəfindən yaradıldığını və nizamlandığını, həm aləmdə meydana gələn olayların, həm də insan

fəaliyyətinin ilahi nizamdan qaynaqlandığını qəbul edir. O tarixdə baş verən hadisələri də bu kontekstdən izah edir. Mütəfəkkirin fikrincə, tarix boyu millətlərin yüksəlməsi və tənəzzülə uğraması, ənənələrdə, əxlaqda, mənəvi dəyərlərdə baş verən dəyişikliklər, bununla əlaqədar millətlərin inkişafı, yaxud da tarix səhnəsindən silinib getməsi ilahi bir qüvvənin varlığına, qəza və qədər inancına söykənir: «qəza və qədər inancı üzərində yaranan bu tərz tarix insanlıq gücünün kainatı idarə edən və olayları istədiyi kimi yönləndirən bir qüvvənin əlində olması görüşünə dayanır» (1, s.145).

Ancaq C.Əfqani ilahi nizamı mütləqləşdirmir. Onun gəldiyi qənaətə görə, tarixdə baş verən hadisələr insan fəaliyyətinin mütləq sərbəstliyini təsbit etmədiyi kimi, ilahi nizam da insanı fəaliyyətdən çəkindirmir, əksinə, onu Allahın qoyduğu qaydaları mənimsəmək üçün səy göstərməyə yönləndirir.

C.Əfqani islamdakı qəza və qədər inancını insana cəsarət, igidlik və comərdlik aşılayan, onun mühakimə gücünü artıran, qərarvermə bacarığını qüvvətləndirən amil kimi dəyərləndirirdi. Və yazırdı ki, bəşər tarixində ad qoymuş bütün böyük fatehlər də - İran şahı Keyxosrov, Böyük İsgəndər, Çingiz xan, I Napoleon və b.- bu inanca söykənmiş, bu inancla hərəkət etmişlər. Onun fikrincə, insan Allah tərəfindən təqdir olunanın gerçəkləşəcəyinə, zahiri maneələrin bu təqdirin reallaşmasına təsir etməyəcəyinə inanmasa, həyatını təhlükədə qoyaraq döyüş meydanına atılmaz. Mütəfəkkir islamın ilk dönəmlərində, qısa bir zaman kəsiyində müsəlmanların göstərdikləri qəhrəmanlığı, şücaəti, əldə etdikləri nailiyyətləri də qəza və qədərə imanla bağlayırdı: «Bu iman onları elə bir nöqtəyə gətirmişdi ki, adları anılınca qəlblər əriyir, ürəklər parçalanırdı. Meydana gətirdikləri qorxu ilə zəfəri müjdələyirdilər. Hələ qılınclarının parıltıları, oxlarının parlaqlığı düşmən ordularına çatmadan, hələ qarşı-qarşıya gəlmədən saldıqları qorxu çatır və qəlblərə yerləşirdi» (1, s.148).

Beləliklə, C.Əfqaniyə görə islam dinindəki qəza və qədərə iman hərəkət, fəaliyyət, irəliləyiş və yüksəliş inancıdır, insanı qorxu rəzalətindən təmizləyən inancdır. Bu inanc insanı Haqq bir yol üçün canını fəda etməyə, bütün həyat nemətlərindən vaz keçməyə sövq edir. Yanlış görüşlər, cəbərilərin təbliğ etdikləri qəza və qədər təlimi isə müsəlmanlara ətalət və durğunluq hissi aşılamaqla, onları fəaliyyətdən qoymuşdur. Və qəza və qədər inancının yanlış təfsiri tarixən islam mədəniyyətinin nüfuzuna mənfi təsir göstərmiş, islamı fatalizm dini kimi dəyərləndirməyə yol açmışdır.

Məqalədə diqqəti çəkən məqam odur ki, C.Əfqani müsəlmanların düşdüyü acınacaqlı vəziyyəti xırdalıqlarına qədər şərh edir və şərəfli keçmişi bərpa etmək üçün onları oyanmağa, fəaliyyət göstərməyə çağırır Mütəfəkkir müsəlmanların hərəkətsizliyini, dirçəlmək, irəli getmək arzularının olmadığını, bununla da «dinlərinin çalışma haqqında verdiyi əmrlərə qarşı çıxdıqlarını» (1, s.142) təəssüflə qeyd etsə də, inanırdı ki,

müsəlmanlar «başlanğıcda olduğu kimi təkrar dinin saf əslinə dönərək əngəllərdən xilas olacaqlar» (1, s.152).

Bu baxımdan C.Əfqani alim və ziyalıların da üzərinə mühüm vəzifələr düşdüyünü qeyd edir, alimlərə, islam düşünürlərinə müraciət edərək, onları səy göstərməyə, qəza və qədər inancının həqiqi mahiyyətini təhrif edən bidətlərə qarşı mübarizə aparmağa, ilk dönəm müsəlmanlarının saf anlayışını xalqa anlatmağa çağırırdı: «Qəzali və onun kimilərin ortaya qoyduqları kimi, qəzaya dayanmanın və təvəkkül etmənin boş durub tənbəlliklə deyil, ancaq iş və hərəkətlə gerçəkləşəcəyi, dinin bunu istədiyi, Allahın, fərzləri və üzərimizə vacib olanları təvəkkül bəhanəsilə tərk etməyi deyil, yerinə yetirməyi əmr etdiyi xalqa yaxşıca anladılmalıdır. Təvəkkül səbəbiylə çalışmağı bir tərəfə buraxmaq ancaq dindən çıxanların və doğru yoldan azanların əməl etdikləri davranışdır» (1, s.150).

Göründüyü kimi, C.Əfqani qəza və qədərin mahiyyətini dini-fəlsəfi və nəzəri baxımdan, Quran və hədislərə istinadən araşdırmaqdan daha çox, bu inancın düzgün dərk edilməsinin müsəlmanların həyat və fəaliyyətlərinə göstərmiş olduğu və göstərə biləcəyi müsbət əməli təsir baxımından şərh edir. Başqa sözlə desək, o digər islam islahatçılarından fərqli olaraq (müqayisə üçün bax: 4, s. 295-297; s. 361; s. 392-393 və s.) qəza və qədər inancına, habelə iradə azadlığı məsələsinə müstəmləkəçiliyə və despotizmə qarşı mübarizənin tələbləri yönümündən yanaşır. Bu da təbiidir. Çünki mütəfəkkirin əsas amacı həqiqi islam prinsiplərinin dirçəldilməsi zəminində müsəlmanların tərəqqi və inkişafına yol açmaq idi.

Beləliklə, C.Əfqani mütləq alın yazısını, fatalizmi rədd edərək, insanın cüzi iradə azadlığına, Allah tərəfindən yaradılmış hərəkətləri, əməlləri seçmək azadlığına malik olduğunu, qəza və qədər inancının bu mənanı kəsb etdiyini əsaslandırır.

C.Əfqaninin məqaləsi qəza və qədər prinsipinin gerçək mahiyyətini əks etdirməklə bərabər, həm də müsəlmanlara, bu inanca tapınaraq fəaliyyət göstərmək, müstəmləkəçiliyə qarşı mübarizə aparmaq, cəhalət və səfalətdən xilas olmaq üçün bir çağırış idi.

## ƏDƏBİYYAT


1. Afqani C., Abduh M. El – Ürvetül-vüska. İstanbul (nəşr ili göstərilmir).
2. Akseki Hamdi A. İslam dini. İtikad, İbadet ve Ahlak. Ankara, 1973.
3. Bammat H. İslamın Manevi ve Kültürel Değerleri. İst., 1977.
4. İslam düşüncesi tarihi, c. 4. İst., 1991.
5. İslam. Qısa məlumat kitabı. Bakı, 1989.
6. Karaman H. C.Efqani. İslam Ansiklopedisi, c.10. İst., 1994.
7. Quran. (Tərcümə Z.Bünyadov və V.Məmmədəliyevindir). Bakı, 1992.
8. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1996.
9. Мец А. Мусульманский Ренессанс. М., 1973.

## СУЩНОСТЬ КАЗА И КАДАРА ПО Дж.АФГАНИ

**Г.Дж.МЮРШЮДЛЮ**

### РЕЗЮМЕ

Великий мыслитель Исламского Востока XIX в. Дж.Афгани обратил особое внимание на разъяснение действительной сущности исламских догм и основных принципов исламского вероисповедания.

В данной статье делается попытка проанализировать суждения Дж. Афгани о сущности каза и кадара на основе его публикации, напечатанной в газете «Аль-Урватуль-вуска».

Дж.Афгани трактовал сущность каза и кадара с позиции ортодоксальной исламской философии и критиковал неверные разъяснения джабаритов по данному принципу. Мыслитель обосновывал, что принцип каза и кадар в исламской религии включает в себе свободу воли человека, свободу выбора человеком своих действий, сотворенные Аллахом.